# Xalqa xidmət nümunəsi

(Əvvəli 1-ci səhifədə).










Bu gün xalqımız ölkəmizin aydın sabahını, xoşbəxt gələcəyini Heydər Əliyevin dövlətçilik məktəbinin ən bacarıqlı yetirməsi olan möhtərəm İlham Əliyevin timsalında görür. Hörmətli Prezidentimiz Azərbaycanın işıqlı gələcəyinə təminat verə biləcək bir şəxsiyyətdir.

Ölkəmiz müasirləşir, müxtəlif istiqamətlərdə inkişaf edir, cəmiyyətin daha da demokratikləşməsi istiqamətində uğurlu addımlar atılır.

Ölkəmizdə aparılan böyük işlər, uzaqgörən daxili və xarici siyasət, günü-gündən genişləndirilən irimiqyaslı islahatlar, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, işgüzar beynəlxalq əlaqələrin genişləndirilməsi, dünyəvi demokratik-hüquqi dövlətçiliyin möhkəmləndirilməsi və s. bütün bunlar müstəqil Azərbaycanın bugünkü stabilliyini təmin etməklə yanaşı, onun gələcək taleyini də müəyyənləşdirir.

Ölkəmizin sürətlə inkişaf etməsində dünyada söz və nüfuz sahibi olmasında hörmətli Prezidentimiz İlham Əliyevin və Azərbaycanın Birinci vitse prezidenti Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu artıq 14 ildir ki, öz fəaliyyətini məhz humanizm prinsipləri əsasında qurub. Fond Azərbaycanda və ölkə hüdudlarından kənarda mükəmməl layihələr yerinə yetirir, Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak edir.

Heydər Əliyev Fondunun icra etdiyi infrastruktur layihələri yüz minlərlə vətəndaşımızın sosial qayğılarının həlli deməkdir. Fond 14 il ərzində bura üz tutmuş heç bir insanın probleminə, dərdinə biganə qalmayıb.

İnsanlarla ünsiyyətdə olmağı, onları dinləməyi və eşitməyi, köməyə ehtiyacı olana kömək etməyi, mənəvi dəstək verməyi Mehriban xanım fəaliyyətinin əsas prinsipi sayır.

Mehriban xanım bunları dövlət qurumlarında çalışan bütün insanların da əsas borcu, vəzifəsi bilir, onları insanlar qarşısındakı inzibati, ən əsası isə mənəvi məsuliyyətlərini heç zaman unutmamağa çağırır: “Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar”.

Ümid yeri kimi ona üz tutmuş, ona etibar etmiş sadə insanlarla ünsiyyətinin formal yox, hər zaman səmimiliyi Mehriban xanımın uğur sirridir. O, əldə edilmiş bütün nailiyyətlərin sadə insanlarla birgə fəaliyyət nəticəsində həyata keçirildiyini bildirir.

Mehriban xanım Azərbaycan mədəniyyətinin qorunması, təbliği sahəsində böyük işlər görür.

Azərbaycanın ənənəvi klassik musiqisi olan muğamın yaşaması üçün saysız hesabsız tədbirlərin keçirilməsinin təşəbbüskarı olan Mehriban xanım Əliyevanın gərgin əməyi sayəsində muğam və aşıq sənəti YUNESKO-nun qeyri-maddi irsin şah əsərləri siyahısına daxil edilib. Birinci xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tolerantlıq, harmoniya və dinc birgəyaşayışın vətəni olan Azərbaycanda çoxsaylı məscidlər kilsələr və digər məbədlər inşa və ya təmir etdirib.

Mehriban Əliyeva ulu öndərimizin əsasını qoyduğu, möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi təhsil strategiyasının həyata keçirilməsinə öz töhfəsini verir. Ölkəmizin inkişafında təhsilin misilsiz əhəmiyyəti olduğunu nəzərə alan Heydər Əliyev Fondu bir neçə iri miqyaslı layihələr hazırlayaraq həyata keçirmişdir. Bu baxımdan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi əhəmiyyət kəsb edir. Müəllifi Mehriban xanım Əliyevanın olduğu bu proqramda respublikamızın rayon və şəhərlərində yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, təhsil ocaqlarının əsaslı təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması, təhsilin keyfiyyətinin qaldırılması əsas məsələlər sırasındadır.

Mehriban xanımın fəaliyyətinin ruhunu təşkil edən humanizm, nəciblik, xeyriyyəçilik onun ziyalı mövqeyinə böyük hörmət və rəğbət gətirir.

Heydər Əliyev Fondu Ulu öndərimizin bizə miras qoyduğu ənənələrə sadiq qalaraq dövlətimizin, xalqımızın gələcəyi olan uşaqların, yeniyetmələrin və gənclərin sağlamlığına xüsusi qayğı göstərir, müxtəlif xəstəliyə düçar olanların müalicə olunması üçün təxirəsalınmaz tədbirlər görür, hər bir vətəndaşın müraciətinə böyük həssaslıq və diqqətlə yanaşmağı özünün başlıca vəzifəsi hesab edir.

Mehriban xanım Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində də öz fəaliyyətini məhz bu prinsiplər əsasında qurub. Onun bu vəzifədə irəli sürdüyü və icrasına birbaşa rəhbərlik etdiyi layihələrin hər biri sosialyönümlüdür. Hər biri vətəndaşları narahat edən köklü problemlərin həllinə yönəlib.

Mehriban xanım Əliyeva da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kimi sözdən daha çox işi-gücü ilə, yaradıb ortaya qoyduğu parlaq nəticələrlə ölkəmizin və xalqımızın xidmətindədir...

**Qüdrət SƏMƏDOV,**
**«Qəbələ»**

# “Əl Fəcr” qəzeti: Qəbələ Beynəlxalq Musiqi Festivalının yüksək səviyyədə təşkili Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xidmətidir

***Birləşmiş Ərəb Əmirliklərində ərəb dilində nəşr olunan və böyük oxucu kütləsinə malik “Əl Fəcr” qəzetində Qəbələdə keçirilmiş beynəlxalq musiqi festivalı barədə geniş məqalə dərc olunub.***

AZƏRTAC xəbər verir ki, iyulun 30-dan avqustun 7-dək keçirilmiş beynəlxalq musiqi festivalında iştirak etmiş qəzetin baş redaktoru Şərif əl Bəsilin müəllifliyi ilə dərc olunan məqalədə hər il dünyanın və Azərbaycanın nüfuzlu musiqiçilərinin iştirakı ilə təşkil olunan beynəlxalq musiqi festivalı və ona ev sahibliyi edən füsunkar Qəbələ barədə ətraflı söhbət açılır. Qeyd edilir ki, festivalın konsertlərindən biri Azərbaycanın dünyaca məşhur bəstəkarı Qara Qarayevin 100 illik yubileyinə həsr olunub. Festivalda Azərbaycanın dahi bəstəkarının, həmçinin digər tanınmış musiqiçilərin əsərlərindən, Azərbaycan xalq musiqi janrı olan muğamın incilərindən heyranlığını bölüşən müəllif bu möhtəşəm festivalın artıq on ildir ənənəvi olaraq Qəbələdə keçirildiyini bildirir.

Yazıda tədbirə ev sahibliyi edən Qəbələnin füsunkar təbiətini təsvir edən Şərif əl Bəsil bu ecazkar təbiət möcüzəsinin əbəs yerə Birləşmiş Ərəb Əmirliklərindən olan turistlərin ən sevilən istiqamətlərindən birinə çevrilmədiyini vurğulayır.

Müəllif yazıda bu möhtəşəm musiqi festivalının təşkilində, həmçinin Azərbaycan mədəniyyətinin və incəsənətinin dünyaya tanıdılması istiqamətində Heydər Əliyev Fondunun və Fondun prezidenti Mehriban Əliyevanın fəaliyyətini xüsusi qeyd edir.

Baş redaktor, eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın böyük humanizm, qayğı və vətənpərvərlik tərənnüm edən xidmətlərindən bəhs edir. Müəllif qeyd edir ki, X Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub.

Məqalədə bildirilir ki, Azərbaycan mədəniyyətinin və incəsənətinin dünyada tanıdılmasında əvəzsiz xidmətləri olan Mehriban Əliyeva Azərbaycan muğamının, tolerantlıq dəyərlərinin dünya miqyasında tanıdılması, mədəniyyətlərarası dialoqun qurulması və təşviq edilməsi istiqamətində mühüm işlər görür. Həmçinin yazıda Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanda təhsilin və mədəniyyətin inkişafı sahəsində gördüyü işlərdən, xeyriyyəçilik fəaliyyətindən bəhs olunur.

Məqalədə baş redaktor X Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçılarının tədbirlə bağlı fikirlərini də oxuculara təqdim edir.